Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Litvadan təklif: Rusiya vətəndaşları ölkəyə girərkən Moskvanın təcavüzünü pisləsin

indicə




Litva

Litvanın Xarici İşlər Nazirliyi (XİN) Rusiya və Belarusun bəzi vətəndaşlarının ölkəyə girişinə qadağa qoyulmasını təklif edir. Söhbət işğal olunmuş Ukrayna ərazilərində təhsil və elm, mədəniyyət, idman və əyləncə sahələrində fəaliyyət göstərmiş, Litvaya bu sahələrdə çalışmaq üçün getmək istəyənlədən gedir. Eyni təklif Rusiyanın Ukraynaya qarşı genişmiqyaslı müharibəsini birbaşa və ya dolayısı ilə dəstəkləyən və ya bu müharibədə iştirak edən şəxsləri də nəzərdə tutur.

"Delfi"nin məlumatına görə, **Rusiya və Belarus vətəndaşlarından bəyannamə imzalamaları tələb oluna bilər.** Sənəddə Rusiyanın Ukraynaya qarşı təcavüz pislənəcək, BMT Nizamnaməsi və prinsiplərinə, Ukraynanın müstəqilliyi və suverenliyinə dəstək ifadə olunacaq.

LRT bildirir ki, "Ukraynaya qarşı hərbi təcavüzlə əlaqədar məhdudlaşdırıcı tədbirlər haqqında" qanuna bununla bağlı dəyişikliklər təklif olunur.

Qanun layihəsi Litvada yaşamaq icazəsi olan Rusiya və Belarus vətəndaşlarına strateji obyektlərin və hərbi poliqonların yaxınlığında daşınmaz əmlak almağı qadağan edir. Bu məhdudiyyət onlara məxsus hüquqi şəxslərə də şamil ediləcək.

XİN həmçinin Litvada yaşamaq icazəsi olmayan Belarus vətəndaşlarına da ölkədə daşınmaz əmlak almağın yasaqlanmasını təklif edir. Rusiya vətəndaşları üçün bu məhdudiyyət artıq 2023-cü ildən qüvvədədir.

Qanun qəbul edilərsə, 2027-ci il yanvarın 1-dən qüvvəyə minə bilər.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur